# Azərbaycan Respublikasının ərazisində hava şəraitinin kəskin pisləşəcəyi ilə əlaqədar olaraq təhsil müəssisələrində təlim-tərbiyə prosesinin dayandırılması barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin məlumatını və Azərbaycan Respublikası Təhsil Nazirliyinin təklifini nəzərə alaraq:

1. Hava şəraitinin kəskin pisləşəcəyi ilə əlaqədar olaraq 2019-cu il yanvarın 17-si və 18-i respublika ərazisində fəaliyyət göstərən bütün təhsil müəssisələrində təlim-tərbiyə prosesi dayandırılsın və bununla bağlı bütün tədbirlər təxirə salınsın.

2. Azərbaycan Respublikasının Təhsil Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci hissəsinin icrası ilə bağlı lazımi tədbirlər görsün.

3. Bu Sərəncamın icrasına nəzarət Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının rəhbərinə həvalə edilsin.

4. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***Azərbaycan Respublikasının Baş naziri***

***Novruz Məmmədov***

***Bakı şəhəri, 16 yanvar 2019-cu il***